AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

RUS TARİXİ ROMANLARINDA QƏHRƏMAN PROBLEMİ (1930-1960-CI İLLƏR)

İxtisas: 5718.01 – "Dünya ədəbiyyatı (rus ədəbiyyatı)"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Pərvanə Ərşad qızı Mustafayeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Dünya ədəbiyyatı və komparativistika" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
Bədirxan Balaca oğlu Əhmədov

Rəsmi opponentlər: filologiya elmləri doktoru, dosent
Ramiz Hüseyn oğlu Bağırov

filologiya elmləri doktoru, professor
Rafiq Manaf oğlu Novruzov

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
Rasimə Fərhad qızı Əsədzadə

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurası

Dissertasiya şurasının
sədri: _____ filologiya elmləri doktoru, professor
Fikrət Fətiş oğlu Cahangirov

Dissertasiya şurasının
elmi katibi: _____ filologiya elmləri üzrə fəlsəfə doktoru
Suad Arif qızı Əfəndiyeva

Elmi seminarın
sədri: _____ filologiya elmləri doktoru, professor
Bella Sirac qızı Musayeva

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Ədəbiyyat nəzəriyyəsində janr kateqoriyasının öyrənilməsinə bir neçə yanaşma mövcuddur; bu yanaşmanı mövzu, struktur və funksional şəkildə müəyyənləşdirmək olar. Bu cəhətdən tarixi roman janrının da özünəməxsus inkişaf yolu keçdiyini, bədii-tarixi düşüncənin sintezində funksional rol oynadığını görmək olar. Tarixi romanın janr mahiyyətini öyrənərkən, onun son bir əsrdə özünün yeni mərhələsinə qədəm qoyduğunu və geniş yayılmış bir janr formalaşmasından keçdiyini görə bilərik. Dünya tarixi romanı kontekstində rus tarixi romanı haqqında da eyni fikri söyləmək olar. Rus tarixi roman janrı ilk olaraq, roman tipinin strukturunda dinamik çevrilmələrin inkişaf xəttini və xüsusiyyətlərini müəyyənləşdirmək yolunu tutmuşdur. Bu mənada tarixi roman janrı da bədii düşüncənin inkişafında mühüm rol oynayır. Bu janrın özünəməxsus nəzəri-estetik prinsipləri artıq iki əsrdir ki, onu bədii düşüncənin diqqət mərkəzinə çəkmişdir. Rus ədəbiyyatı hələ XIX əsrdə N.M.Karamzinin, V.A.Jukovskinin, K.N.Batyuşkovun, A.A.Bestujev-Marlinskinin, V.Küxelbekerin, N.A. Polevoyun, N.V.Kukolnikovun, R.M.Zotovanın, D.L.Mordovtsevin və başqa yazıçıların yaradıcılığında Rusiya tarixinin aktual hadisələrini əks etdirirdi. Tarixi romanın klassik nümunəsi L.Tolstoyun "Hərb və sülh" romanı ilə yeni səviyyə müəyyənləşir və tarixi hadisə və şəxsiyyətlərin təsvirində gerçəkliklə bədii təxəyyülün sintezi ən yaxşı şəkildə ifadə edilir.

XX əsrin əvvəllərində müəyyən mövzu və qəhrəman dəyişiklikləri ilə rus tarixi romanı davam edir. 20-30-cu illərdə O.Forşun "Daşa bürünmüşlər" ("Odetı kamnem"), "Müasirlər" ("Sovremenniki"), "Qaynar sex" ("Qoryaçiy sex"), "Qarğa" ("Voron") kimi əsərlərində də hər hansı tarixi dövrə müraciət edilirdi. Lakin proletariat diktaturası dövründə yaranan bu əsərlərin hamısının tarixi roman janrını inkişaf etdirməsini doğru hesab etmək olmaz. Bu romanlarda tarixə münasibətdə ideoloji, siyasi meyillər onların uzunömürlü olmasını təmin etmirdi.

1930-1960-cı illərdə roman janrının başlıca prinsiplərindən biri tarixə marağın artması idisə, digəri çağdaş yazıçıların ideoloji

meyillərdən uzaqlaşmasından irəli gəlirdi. Çünki müasir həyat hadisələrinin təsviri bədii əsərdə yazıçının siyasi mövqeyini müəyyən etməli, ya da əsəri proletariat ədəbiyyatı səviyyəsinə endirmək meylinə qoşulmamaq idi. Lakin sosialist realizmi keçmişlə, tarixlə bağlı yazılan əsərlər qarşısında da müəyyən baryerlər qoyurdu ki, bu da janrın inkişafını ləngidir, tarixə münasibətdə yanlış tendensiya yaratmış olurdu. Keçmişə proletar tələbləri ilə yanaşmaq ona ideoloji yanaşmaqdan başqa bir şey deyildi. Belədə tarixi hadisə və şəxsiyyətlər də mövcud ideologiyanın ruporu funksiyasını daşıyırdı. Bununla belə, tarixi romanda faktların və şəxsiyyətlərin təsvirində müxtəlif yanaşmalar da mövcud olmuş, yaranan tarixi əsərlərdə dövrün, mühitin, hadisə və şəxsiyyətlərin realistcəsinə təsviri mühüm yer tutmuşdur.

Tədqiq olunan sosialist realizmi dövrü rus ədəbiyyatında olduğu kimi, tarixi roman janrı ziddiyyətli və mürəkkəb bir mərhələdən keçmişdir. Bu dövrdə də çoxlu tarixi romanlar yazılmasına baxmayaraq, janrı mövzu və qəhrəman baxımından irəli apara biləcək əsərlər o qədər də çox olmamışdır. Bu mənada, O.Forşun "Daşa bürünmüşlər", "Müasirlər", A.Tolstoyun "Birinci Pyotr", V.Yanın "Çingiz xan", "Kurqanlardan gələn işıq" romanları, S.Borodinin "Səmərqəndin ulduzları" ("Topal Teymur", "Yürüş tonqalları", "İldırım Bəyazid") epopeyasında tarixdə qəhrəman konsepsiyası ilə sosialist realizminin mövcud prinsiplərindən kənara çıxaraq janrın inkişafını şərtləndirmişdir. Zaman keçdikcə tarixi hadisə və şəxsiyyətlərə baxışda bir durulma, aydınlanma baş verir, ideoloji meyillər zəifləməyə doğru gedir.

Mövzunun aktuallığı onunla şərtlənir ki, otuz ildən çox davam edən bu prosesdə yazılan əsərləri yenidən dəyərləndirmək çağdaş ədəbi mühitə də öz təsirini göstərə bilər və janrın yeni nümunələrinin yaranmasına da nəzəri baza rolunu oynaya bilər. Rus tarixi romanında qəhrəman problemi ədəbiyyatşünaslıqda çox az araşdırılmışdır. Buna baxmayaraq, rus tarixi romanında qəhrəman probleminin araşdırılmasını iki yerə bölmək olar; birincisi, problemin Rusiya ədəbiyyatşünaslığında araşdırılması, ikincisi, mövzunun Azərbaycan ədəbiyyatşünaslığında tədqiq edilməsi. Rus ədəbiyyatında tarixi romanın inkişaf yolu haqqında müəyyən

tədqiqatlar yazılsa da, rus tarixi romanında qəhrəman probleminə ayrıca tədqiqat əsəri həsr edilməmişdir; yalnız aparılan araşdırmalarda az da olsa, qəhrəman probleminə müəyyən münasibət bildirilmişdir. Rus ədəbiyyatşünaslığının tarixi roman janrı ilə bağlı araşdırmalarına gəldikdə isə, onları bir neçə yerə bölmək olar. İlk mərhələdə tarixi romanın yazıldığı dövrdə ədəbi tənqidin münasibətidir. A.Antonovskaya, B.Valbe, B.Qrossman, Z.Kedrina, Q.Lenobl, Y.Avaliani, Z.Reyzonzon, Q.Vladimirov, A.Ponkratova, K.Loks, V.Kurpotin, E.Knyazyeva və b. məqalə və tədqiqatlarında tarixi romanın ədəbi prosesdəki rolu və qəhrəman probleminə toxunmuşlar. Sonrakı ədəbiyyatşünaslıq da tarixi roman, onun qəhrəmanları, tarixilik və müasirlik problemlərini bu və ya digər şəkildə tədqiqata cəlb etmişdir. B.Akimovun "Sergey Borodinin yaradıcılığı",[1] A.Alpatovun "Aleksey Tolstoy-tarixi roman ustası",[2] Y.Andreyevin "Sovet tarixi romanı",[3] B.Valbenin "Yuri Tınyanov və onun tarixi romanı", "Aleksey Pavloviç Çapıgin",[4] A.Belinkovun "Yuri Tınyanov",[5] Q.Vladimirovun "Sergey Borodinin yaradıcılığı haqqında",[6] T.İzotovun "Sovet tarixi romanının tənqidi tarixi",[7] S.Petrovun "Rus tarixi romanı", "Sovet tarixi romanı"[8] və b. monoqrafiya və tədqiqatlarında dövrün tarixi roman janrının inkişaf xətti, mövzusu və bir çox problemləri tədqiq olunur. Bu

[1] Акимов, Б. Творчество Сергея Бородина / Б.Акимов. – Ташкент: Изд. литература и искусства им. Гафура Гулама, – 1972. – 130 с.

[2] Алпатов, А.В. Алексей Толстой – мастер исторического романа / А.В.Алпатов. – Москва: Сов. писатель, – 1958. – 146 с.

[3] Андреев, Ю.А. Русский советский исторический роман / Ю.А.Андреев. – Москва: Издательство Академии Наук СССР, – 1962. – 298 с.

[4] Валбе, Б. Юрий Тынянов и его исторические романы / Б.Валбе. – Ленинград, – 1931, т.10, – с.75-77; Валбе, Б. Алексей Павлович Чапыгин / Б.Валбе. – 2-е. изд.– Ленинград: Советский писатель,– 1959. – 426 с.

[5] Белинков, А. Юрий Тынянов / А.Белинков. – Москва: Сов. писатель, – 1960. – 435 с.

[6] Владимиров, Г. Критико-библиографический очерк // С.П.Бородин. Собрание сочинений: [в 5 томах] / Том I.– Ташкент: ГИХЛ УзССР, – Т.1. – 1958, – с.3-24

[7] Изотов, Т. Из истории критики советсткого исторического романа (20-30-е годы) / Т.Изотов. – Оренбург, – 1967, – с.40.

[8] Петров, С.М. Русский исторический роман XIX века / С.М.Петров. – Москва: Художественная литература, – 1964. – 439 с.; Петров, С.М. Русский советский исторический роман / С.М.Петров. – Москва: Современник, – 1980. – 360 с.

monoqrafiyaların çap olunma tarixi təxminən 1940-1980-ci illəri əhatə edir. Bu illərdə ideoloji sistemin fərqli olduğunu və mövcud ideologiyanın sosialist realizmi kontekstində ədəbi qiymətləndirməyə də nüfuz etməsi yeni dəyərləndirmələri və həmin əsərləri yenidən araşdırmanı şərtləndirir.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti XX əsrin I yarısında yazılmış Rus tarixi romanlarıdır. Tədqiqat işində konkret olaraq 1920-60-cı illərdə yazılmış tarixi romanlar tədqiq olunur. Onun predmetini isə rus tarixi romanlarında qəhrəman problemi təşkil edir. Bu kontekstdə Rus tarixi romanlarında qəhrəman problemi, onun inkiaşf yolları və xüsusiyyətləri araşdırılır.

Tədqiqatın məqsəd və vəzifələri. Rus tarixi roman janrının sovet ədəbiyyatının müəyyən bir mərhələsində keçdiyi inkişaf yolu, qarşıya çıxan problemlər tədqiqat işinin başlıca vəzifələrindən biridir. Tədqiqatın əsas məqsədi XX yüzilin rus tarixi romanlarında obrazların tipoloji xüsusiyyətlərini, xarakterlərini və özünəməxsusluğunu araşdırmaqdır. Bu məqsəddən irəli gələn **vəzifələr** aşağıdakılardan ibarətdir:

– Rus tarixi romanlarının yaranması və formalaşması prosesini araşdırmaq;

– Sosrealizmin ilkin mərhələsində rus tarixi romanının inkişaf meyillərini nəzəri cəhətdən tədqiq etmək;

– Rus romanında tarixi dövrün bədii inikası və müəllif mövqeyini araşdırmaq;

– tarixi gerçəklik və bədii təxəyyül kontekstində qəhrəman problemini tədqiq etmək;

– tarixi mövzu, dövr və şəxsiyyətlərini üzə çıxarmaq;

– tarixi şəxsiyyətlərin bədii təcəssümünün tipoloji prinsiplərini araşdırmaq;

– tarixə və tarixi şəxsiyyətlərə baxışda müəllif mövqeyinin özünəməxsusluğunu müəyyən etmək;

– Ədəbi şəxsiyyətlərin bədii obrazının yaradılması;

– Tarixi şəxsiyyətlərin-fatehlərin bədii obrazının təcəssümü və s.

Tədqiqat metodları. Dissertasiyada rus ədəbi, elmi irsinin öyrənilməsində tarixilik prinsipinə əsaslanaraq müqayisəli təhlil metoduna üstünlük verilmişdir. Tədqiqatda çağdaş elmi-nəzəri irsin

təcrübəsinə söykənilmiş, qarşıya qoyulan problemin xarakterinə uyğun olaraq tarixilik metod və prinsipi əsas götürülmüşdür. Eyni zamanda, elmi işin yazılmasında ədəbi, tarixi, elmi-nəzəri materiallardan istifadə olunmuş, analoji tədqiqatların təcrübə və elmi nəticələrinə istinad edilmişdir.

Müdafiəyə çıxarılan əsas müddəalar. Dissertasiyada qırx ildən (1930-1960) çox bir dövrün rus tarixi romanlarının keçdiyi inkişaf yolu və problemləri araşdırılır. Dissertasiyada üzərində durulası bir çox müddəalar var ki, bunları aşağıdakı kimi qeyd etmək olar:

– Rus tarixi romanının yaranması və formalaşması probleminə nəzəri baxış;

– 20-30-cu illərdə tarixi romanın yeni bir mərhələyə daxil olması;

– Sovet ideologiyasının ədəbiyyata, eləcə də, tarixi roman janrına müdaxiləsinin janrın inkişafına təsiri;

– Yeni dövrdə tarixi roman janrına müraciətin çoxalmasının səbəbləri;

– Tarixin, keçmişin təsvirində ideoloji meyillərin artması;

– Yeni mərhələdə tarixi roman janrında qəhrəman axtarışları;

– Tarixi şəxsiyyətlərin, fatehlərin tarixi roman janrının qəhrəmanı edilməsi;

– Keçmişə münasibətdə sosrealizmin ideoloji meyillərə söykənməsi;

– Ədəbi şəxsiyyətlər tarixi romanların qəhrəman obrazında;

– Qəhrəman probleminə müəllif və ideoloji düşüncənin üst-üstə düşməməsi və s.

Tədqiqatın elmi yeniliyi. Rus bədii nəsrində mühüm yer tutan tarixi mövzu və tarixi şəxsiyyət məsələsi ayrıca tədqiqat obyekti olmamışdır. İlk dəfədir ki, rus tarixi romanlarında qəhrəman problemi araşdırılır. Tədqiqatın elmi yeniliyi onunla şərtlənir ki, burada bütöv bir mərhələnin tarixi romanlarının keçdiyi inkişaf yolu təhlil edilir, janrın inkişaf yolu izlənilməklə, həm də qəhrəman problemi nəzəri şəkildə tədqiq edilir.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqat işinin əhəmiyyəti onunla şərtlənir ki, eyni mövzu və problematika rus və

Azərbaycan nəsri kontekstində iki fərqli və oxşar baxış modelləri araşdırılır. Tarixi şəxsiyyətlərə fərqli baxışın mövcud sistemin ideoloji meyillərindən irəli gəlməsi bir daha müəyyən olunur. İşin praktiki əhəmiyyəti ondan ibarətdir ki, rus və Azərbaycan ədəbiyyatlarının bu dövrü ilə bağlı yazılacaq tədqiqat işlərində, eləcə də müqayisəli ədəbiyyatşünaslıq üzrə xüsusi kurslarda, mühazirə və seminarlarda istifadə edilə bilər.

Aprobasiyası və tətbiqi. Dissertasiyanın əsas müddəaları respublika və beynəlxalq konfranslarda oxunan məruzələrdə, respublikada və xaricdə nəşr edilən elmi məcmuələrdə əks olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissetasiya işi AMEA Nizami adına Ədəbiyyat İnstitutunun "Dünya ədəbiyyatı və komparativistika" şöbəsində yerinə yetirilib.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 8 səhifə, 15723 işarə, I fəsil – 41 səhifə, 83455 işarə, II fəsil – 48 səhifə, 97454 işarə, III fəsil – 30 səhifə, 60863 işarə, nəticə – 5 səhifə, 8509 işarədir. Dissertasiyanın ümumi həcmi (titul səhifəsi, mündəricat, istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla) – 266004 işarədir.

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı əsaslandırılır, işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqat metodları, tədqiqat işinin elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası, tətbiqi və strukturu şərh olunur.

Dissertasiyanın **"Rus tarixi romanlarının təşəkkülü problemləri"** adlı I fəsli iki paraqrafdan ibarətdir. ***"Rus tarixi romanının yaranması və formalaşması"*** adlı I paraqrafda rus tarixi romanının inkişaf yolu araşdırılır. Qeyd olunur ki, Avropa tarixi romanlarında meydana çıxan janr ənənələri XIX əsrdə rus tarixi povest nəsrində də inkişaf etdirilmişdir. Məhz o zaman tarixi roman, ədəbi düşüncə üçün bir janr olaraq dominant hala gəldi, yeni ədəbi

formalar əldə etdi: *"Bu sivilizasiya məkanı"nı əhəmiyyətli dərəcədə genişləndirən keyfiyyətcə yeni mədəni və tarixi dünya, ilk növbədə təcəssüm olunan bir sıra yeni tarixşünas düşüncələrin meydana çıxmasına səbəb oldu. Ədəbiyyat – tarixi bir roman, tarixi bir şeir, tarixi dram, ədəbi və bədii fəlsəfə təcrübələridir"*[9]. Rus tarixi romanının yaranmasında və formalaşmasında rol oynayan təkcə V.Skott romanları olmadı, həm də tarix elminə marağın artması müəyyən rol oynadı. Rus təhsilli cəmiyyətin Rusiyanın milli keçmişinə ümumi marağı hələ XVIII əsrin ortalarında yaranmışdı. M.V.Lomonosov, V.N.Tateşeva, M.M.Şербатова, I.N.Boltinin əsərləri rus tarixşünaslığının əsasını qoymuşdu. Böyük fransız inqilabı, Napoleon müharibələri və dövrün digər ən böyük hadisələri rus xalqının milli şüurunun oyanmasına və formalaşmasına müəyyən kömək etmişdi. Milli özünüdərk prosesi, cəmiyyətin Rus orijinallığının mahiyyətini izah edə bilən tarixi keçmişə olan marağını aktuallaşdırırdı.

Beləliklə, XIX əsrin əvvəllərində rus ədəbiyyatında tarixi rəvayətə olan marağın artması bir neçə amillə mümkün oldu:

1) Qərbdə tarixi roman janrının formalaşması, ilk növbədə V.Skottun əsərlərinin görünüşü və Qərb tarixi romanının Rusiyaya nüfuz etməsi;

2) Əsrin əvvəlində yaranan vəziyyət: milli özünüdərk və milli keçmişin formalaşması şəraitində maraq, milli keçmişə müraciət etməyə məcbur olan proses;

3) Rus tarix elminə marağın yaranması və tarixşünaslığın inkişafı.

Rus tarixinə marağın yaranması, əsasən, 1812-ci il Vətən müharibəsi və Dekabristlər üsyanı ilə də əlaqələndirilir. Hər halda, bu iki faktor bədii nəsrdə tarixiliyə marağı xeyli dərəcədə artırmışdır. Üçüncü faktor kimi, N.M.Karamzinin "Rusiya dövlətinin tarixi" əsəri önə çıxır. Karamzin tarixi əsərinin ümumiləşdirici xüsusiyyəti dönüş dövrünün tarixşünas əksini sistemləşdirməyin zəruriliyinə dəlalət edir. Tarixi vəziyyətdə bir insanın şifahi-ritual davranışının xüsusi bir ədəbi forma kimi tarixi roman janrına çevrilməsi prosesi

[9] Бестужев-Марлинский, А.А. Сочинения: [в 2 томах] / А.А.Бестужев-Марлинский. – Москва: Гослитиздат, – Т.2. – 1958. – с. 80.

başlayır. N.M.Karamzinin 1812-ci ildən əvvəl hazırlanmış "Rus dövlətinin tarixi" əsəri müharibədən sonra mühüm bir intellektual katalizatora çevrilmiş və dövrün əsas siyasi hadisələri ilə səsləşə bilmişdir. V.A.Jukovskinin "Marina Roşa", K.N.Batyuşkovun "Predslava və Dobrınya", "Bir dosta məktublar", A.A.Bestujev-Marlinskinin "Rus" hekayələri, xüsusən Baltikyanı ölkələrin ekzotik tarixini açan "Roman və Olqa", "Xain", V.Küxelbekerin "Ado", "Möhtəşəm turnir" və s. əsərləri janrın inkişafında müəyyən rol oynayır.

Tarixi roman ənənəsi 30-40-cı illərdə də davam etmiş, bədii düşüncə *"...tarixi rəvayətin daha elementar modellərini izləmişdir"*[10]. İlk rus klassik tarixi romanı "Yuri Miloslavski və ya 1612-ci ildə ruslar", eləcə də digər tarixi əsərlər – "Askoldun qəbri", "Kuzma Roşin", "Toska evdə", "Kuzma Petroviç Miroşev", "Bryanski meşəsi", "Ruslar 17-ci əsrin əvvəllərində" əsərlərində dramatik başlanğıca geniş yer verilməklə rus tarixi nəsrinə yeni bir stilistik istiqamət gəlmişdir.

Dövrün tarixi romanlarının xarakterində bir ümumilik də var idi. Bu ümumilikdə aşağıdakı xüsusiyyətlər ifadə olunurdu:

Birincisi, tarixi bir romanda qəhrəman mütləq tamamilə əhəmiyyətsiz bir insan olmalı idi. Çox zaman qəhrəman da xarakter olmadan da ola bilirdi;

İkincisi, romanın strukturunda çoxyönlülük olurdu; süjet və obrazlara bir qəribəlik, gülməlilik, komiklik verilirdi;

Üçüncüsü, onun süjet xəttində hər zaman mütləq bir növ ictimai sima təsvir olunmalı idi;

Dördüncüsü, bu romanlarda komikliklə faciəvilik qarışdırılır, qovuşuq şəkildə verilirdi.

Tədqiqatçı S.M.Petrovun fikrincə, *"XIX əsrin 40-cı illərinə qədərki tarixi romanlarda bir təqlidçilik, epiqonçuluq da yox deyildi. Bu zaman rus ədəbiyyatında etik və estetik prioritetlərdə dəyişiklik oldu, qurulmuş ənənələr pozuldu, yeniləri yaradıldı."*[11] Təbii proses

[10] Шкловский, В. Заметки о прозе русских классиков / В.Шкловский. – Москва: Советский писатель, – 1955, – с. 89.

[11] Петров, С.М. Русский исторический роман XIX века / С.М.Петров. – Москва: Советский писатель, – 1964. – с. 267.

tarixi roman janrının inkişafına çox təsir etdi. Buna görə "Üç portret" hekayəsinin müəllifi A.S.Turgenyev burada A.S.Puşkinin "Kapitan qızı" ənənələrini izlədiyini söyləməkdə tamamilə haqlı idi. Bu dövrün ən yaxşı tarixi romanı L.Tolstoyun "Hərb və sülh" romanı oldu. L.Tolstoyun müharibəni milli bir fəlakət kimi şərh etməsi, xalq müqavimətini Napoleonun şəxsiyyəti ilə əlaqəli şəkildə təsvir etməsi kimi təzahürlərində də özünü büruzə verdi.

Beləliklə, XIX əsr boyu rus ədəbiyyatında əsrin başlanğıcında yaranan tarixi roman janrının sürətli inkişafı baş verdi. Ümumdünya milli özünüdərk prosesi şəraitində aktuallaşan və ictimai tarixi şüurun və daxili elmi tarixşünaslığın xüsusiyyətlərini əks etdirən tarixi roman janrı müəyyən bir inkişaf yolu keçdi.

İkinci paraqraf ***"Sosrealizm dövründə tarixi romanında inkişaf meyilləri"*** adlanır. Bu paraqrafda sosrealizm dövründə Rus tarixi romanının inkişaf yolu araşdırılır. Qeyd olunur ki, bu dövr rus tarixi romanı özünəqədərki böyük bir ənənədən gəlirdi. Əsrin 20-30-cu illərindən başlayaraq, digər sahələrdə olduğu kimi, ədəbiyyata da siyasi proseslər tarixiliyin bədii düşüncədə ifadəsinə öz təsirini göstərdi. Bu təsiri iki istiqamətdə düşünmək olar; birincisi, tarixi roman janrı təbii inkişafı nəticəsində müəyyən bir mərhələyə daxil olur, ikincisi, Rusiyada bolşevizmin hakimiyyətə gəlməsi nəticəsində tarixi hadisələrə münasibətdə materialist nöqteyi-nəzər önə keçir və hər şeyə ideoloji yanaşma özünü göstərir. Ədəbiyyatşünas D.Nikolayev bu illərdə yaranan ədəbiyyatı nəzərdə tutaraq yazırdı: *"...1920-1930-cu illərdə yazılan əsərlər əsasən tarixi, fantastik və avantürist janrlarda idi"*[12].

Bu illərdə roman janrında tarixilik problemi, yaxud tarixi roman özündən əvvəlki ədəbi prosesdən fərqli bir inkişaf yolu keçir. İnqilabın gətirdiyi yeni məzmun onun mövzu və problematikasını, qəhrəmanlarını və ifadə vasitələrini də dəyişir. Ədəbiyyatın qarşısına bir çox mürəkkəb vəzifələr qoyulur. Bu vəzifələr içərisində yeni həyat qurucularının mübarizəsini təsvir etmək də müəyyən yer tutur. Yazıçıların diqqəti daha çox yaxın tarixdə baş verən hadisələrə yönəlir. 20-ci illərin əvvəllərində bunun ilk nümunələrini görürük.

[12] Николаев, Д.Д. Русская проза 1920-1930-х годов: авантюрная, фантастическая и историческая проза / Д.Д.Николаев. – Москва: Наука, – 2006. – с. 32.

Bu nümunələr, əsasən, hekayə və oçerklərdən ibarət olurdu. İ.Bebelin "Süvari ordu", A.Neverovun "Fərsiz Andrey", V.İvanovun "Zirehli qatar 14-69" və s. hekayələri L.Əliyevanın fikrincə: *"...romana keçiddə eksperiment rolu oynayaraq, yeni janra-romana doğru istiqamətlənir"*[13]. O vaxtlar bu mövzuda çox yazılırdı, bunun əsas səbəblərindən biri gənc nəslin özünü təsdiq etməyə çalışması idisə, bir səbəbi də yeni ictimai quruluşun özünü ifadəsi üçün müəyyən imkanlar yaratması idi. Bunun nəticəsi olaraq M.Qorkinin "Artamanovların işi", F.Qladkovun "Sement", L.Leonovun "Barsuklar" romanları ilə bədii nəsrdə tarixi problematika işlənilməyə başladı. Ancaq onu da demək lazımdır ki, M.Qorki yaradıcılığında proletar mövzusu və ya partiyalılıq tendensiyası inqilabdan əvvəl yazdığı "Ana" romanında da var idi.

A.Çapıginin "Stepan Razin"in yazılması ilə rus xalqının tarixi qəhrəmanının uzun müddət bir quldur kimi qələmə verilməsi sindromu sındırıldı. Bir-birinin ardınca yazılan tarixi romanlarda xalqın keçmişinə maraq artdı, tarixi şəxsiyyətlərə və hadisələrə münasibətdə yeni stereotiplər meydana gəldi. İ.Şişkeviçin "İvan Bolotnikov", A.Akuşkinin "Dekabristlər", Y.Tınyanovun "Kyuxlya", "Puşkin" V.Zalejskinin "İnqilab yollarında", Al.Altayein "Stenkina Volnisa", O.Forşun "Daşdan geyinmişlər", "Radişev", A.Karavayevin "Qızıl dimdik", E.Zamıslovskoyun "1848", "1871-ci il Paris Kommunası", Z.Zlobinin "Salavat Yulayev" və s. əsərlərinin əsas mövzusu tarixi hadisələr və şəxsiyyətlər idi. Əslində bu əsərləri yeni tarixi roman axtarışları kimi də səciyyələndirmək olar.

30-cu illərin sonuna doğru tarixi roman janrının yeni nümunələri yaranır. A.Tolstoyun "Birinci Pyotr" əsəri tarixi romanın ən mükəmməl nümunəsi kimi diqqəti cəlb edir. Romanda dövrün tarixi panoramı son dərəcə reallıqla əks etdirilməsi ilə yanaşı, xalq həyatı da doğru-düzgün əks etdirilmişdir. S.Xmelnitskinin "Daş qalxan", Olqa Forşun "Radişşev", A.Novikov-Priboyun "Susima", S.Borodinin "Dmitri Donskoy", V.Şişkovun "Yemelyan Puqaçov", V.Yanın "Çingiz xan", V.Kostilyovanın "Kozma Minin", V.Aristovun "Smolensk" romanlarının yazılması ilə janr özünün yeni

[13] Əliyeva, L. İnqilabi-tarixi romanlarımızda Qorki ənənələri // – Bakı: Ulduz, – 1985. №11, – s. 53.

inkişaf mərhələsinə qədəm qoyur. Rus tarixi romanlarının rəngarəngliyi arasında üç mövzu diqqəti cəlb edirdi:

1) Rus dövlətinin tarixi;

2) Rus inqilabi hərəkatının tarixi;

3) Dahi rus şəxsiyyətlərinin bioqrafiyaları.

Əlbəttə, bu və ya digər mövzuya xalis şəkildə nadir hallarda təsadüf edilir, çox vaxt bir əsərdə həm inqilabi hərəkat, həm rus dövlətinin tarixi, həm də tanınmış şəxsiyyətin həyatı (məsələn, O.Forşun "Radişşev" əsəri) birləşdirilir. Lakin bu mövzular həmişə eyni səviyyədə izlənilməmişdir, hansısa tarixi romanda bəzən ideologiya üstün olmuş, onun istiqamətini müəyyən etmişdir. Bu illərdə rus dövlətçiliyinin tarixi daha geniş təqdim olunmuşdu. Həmin mövzuda yazılmış əsərlər arasında iki cərəyan izlənir: birinci cərəyana rus hərb tarixinin şanlı səhifələri haqqında kitablar, ikinci cərəyana isə mütləqiyyətə, çarizm quruluşuna nifrəti əks etdirən kitablar daxil idi.

20-30-cu illərdə yaranan tarixi romanlarla 50-60-cı illərdə yazılan tarixi əsərlər arasında xeyli dərəcədə fərqin olduğunu görmək olar. Əgər bu illərdə tarixi romanın qarşısında müəyyən maneələr qoyulmuşdusa, sonralar bu ideoloji qadağalar aradan götürülmüşdür. Elə romanın özünün inkişaf səviyyəsi də janrın irəliyə doğru inkişafında müəyyən rol oynayırdı. Çünki tarixi romanların uğurunu təmin edən başlıca şərtlərdən biri həyat həqiqətinə sadiq qalmasıdır. Həyat həqiqəti isə həmin dövrün sənədlərində öz əksini tapır. Rus ədəbiyyatşünası V.Oskotski tarixi romanın yazılmasında faktlardan, sənədlərdən istifadənin əhəmiyyətini nəzərdə tutaraq yazırdı: *"Sənədlərə arxalanmaq tarixi romanın təbiətini başa düşmək üçün həqiqətən çox şey verir. Lakin hər halda onu janr kimi fərqləndirməkdən ötrü bunu universal açar hesab etməyə əsas yoxdur"*[14].

Sosialist realizmi mərhələsində tarixi mövzu və problematikanı bədii əsərə gətirmək çətin olsa da, bir çox əsərlər yazılmışdır. Bu əsərlərdə rus xalqının keçmişi, tarixi qəhrəmanlığı təsvir edilirdi. Lakin bu əsərlərdə tarixi hadisə və qəhrəmanlara ideoloji yanaşma

[14] Оскоцкий, В. Роман и история / В.Оскоцкий // Советский роман. Новаторство. Поэтика. Типология. – Москва: Наука, – 1978. – с. 199.

özünü göstərirdi. Şübhəsiz, burada təcrübə də öz sözünü deyirdi. Hələ tarixi roman kifayət qədər təcrübə qazanmamışdı. Tarixi hadisələrə münasibət də birmənalı deyildi. Bir müddət sovet tarixi romanı məhz bu aspektdə inkişaf etmişdir. Xüsusilə, bu dövr tarixi romanının ən "zəif bəndi" qəhrəman problemi olmuşdu. Çünki bolşevizmin keçmişə münasibəti özü sağlam deyildi. Keçmişi təftiş edir, həmin dövrün tarixi şəxsiyyətlərinə birmənalı münasibət bəsləmirdi. Yazılan əsərlərin bir çoxunda isə qəhrəmanlar yeni dövrün ideoloji tezisləri ilə yüklənir, onlara bolşevik ideologiyası tələqin edilirdi. Bütün bunlar tarixi romanın yeni inkişaf xəttini müəyyən edirdi. Lakin getdikcə tarixə, keçmişə olan bu qadağa aradan götürülmüş, tarixi hadisə və şəxsiyyətlər ədəbiyyata gətirilmişdir. Xüsusilə, I Pyotr, İvan Qodunov, Suvorov, Kutuzov, dekabristlərin obrazlarının yaradılması və tarixi gerçəkliyə uyğun olaraq təsvir edilməsi rus xalqının keçmişinin təntənəsini ifadə etməklə, kommunist ideologiyasının mövcud siyasətinin doğru olmadığını üzə çıxardı. Rus tarixi romanı dünya fatehlərini də baş qəhrəman olaraq əsərə gətirdi. Makedoniyalı İskəndər, Teymurləng kimi şəxsiyyətlər siyasi sistemin mənfi münasibətlərinə baxmayaraq, tarixi roman janrının baş qəhrəmanına çevrilirdi.

Birinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.[15]

[15] Mustafayeva, P.Ə. XX əsrin I yarısında rus nəsrində tarixi roman və onun inkişaf yolları // – Bakı: M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2017. №8, – s.345-352.; Sosrealizmin ilkin mərhələsində rus tarixi romanının inkişaf meyilləri // – Bakı: ADPU-nun Xəbərləri, Humanitar, ictimai və pedaqoji elmlər seriyası, – 2018. №3(66), – s.73-82.; Вопросы искажения фактов в описании реальности в историческом романе // – Киев: Мова и культура. Язык и культура, – 2019. Вип. 22, том II (197), – с.416-422.; Питания спотворення фактів у описі реальності в історичному романі // – Дрогобич: Проблеми Гуманітарних Наук. Серия филология. Zбирник Науковых праць, – 2019. Вип. 44, – с.60-68.; Tarixi romanının yaranması və formalaşması problemləri // "Filoloji elmlər innovativ tədqiqatlar kontekstində". Beynəlxalq elmi-praktik onlayn konfransın materialları, – Bakı: Bakı Slavyan Universiteti, – 24 dekabr, – 2020, – s. 383-387.; Пути развития русского исторического романа во второй половине XIX века // "Инновационные подходы к внедрению передового опыта и его практическому применению" Международная научно-практичесая конференция, Стерлитамак: ФЫШ, Ч.2, – 19 декабря, – 2020, – с.50-54.; Problems of the Emergence and Formation of the Russian

Dissertasiyanın II fəsli **“Rus tarixi romanında gerçəkliyin təsviri və qəhrəman axtarışları”** sərlövhəsi altında verilir. ***“Qəhrəman problemi tarixi gerçəklik və bədii həqiqət müstəvisində”*** adlanan I paraqrafda tarixi romanda tarixə və şəxsiyyətə münasibət məsələsi tədqiq edilir. Sosrealizm yazıçıdan tarixə müraciət zamanı müasirlik mövqeyindən yanaşmanı tələb edirdi. K.Trenovanın “Puqaçovçuluq”, S.Zlobinanın “Salavat Yulayev”, M.Mariçin “Quru küləklər”, O.Forşun “Daşa bürünmüşlər”, “Qaynar sex”, “Vəzir Muxtarın ölümü” və s. romanlarında tarixi gerçəkliyin təsviri məsələləri əsas yer tuturdu. Bununla yanaşı, bu əsərlərdə hadisələrə münasibətdə müasirlik tendensiyasına da üstünlük verilirdi.

Lakin bu dövrdə yazılan əsərlərdə qəhrəman probleminə baxışda başqa bir tendensiyanın da şahidi oluruq. Bu da tarixi romana qəhrəman seçərkən qoyulan qadağalardan ibarət idi. Yəni rus tarixində elə şəxsiyyətlər var idi ki, onlar tarixdə birmənalı qəbul edilmədiyindən onları zamanında ədəbi əsərə qəhrəman etmək mümkün olmurdu. Xüsusilə hökmdarlar məsələsində dövrün mövcud bolşevik ideoloji meyilləri buna heç cür imkan vermirdi. Keçmişə münasibət də burada müəyyən rol oynayırdı. Aleksey Tolstoyun (1883-1945) “Birinci Pyotr” romanı bu istisnanı təşkil etdi. Ancaq bu əsərin yazılmasını gözləmək üçün müəyyən vaxt lazım idi. Hər şeydən əvvəl, A.Tolstoy bu zaman artıq görkəmli yazıçı kimi tanınmışdı. Özü də mühacirətdən gəlmiş, tarixi hadisələrə münasibətdə kifayət qədər bədii təcrübə toplaya bilmişdi. Əsərin yazıldığı dövrdə 20-ci illərin kəskin bolşevik ab-havası da getdikcə çəkilməkdə, öz yerini sənət amilinə təhvil verməkdə idi.

Yazıçı getdikcə tarixi hadisələrə meyil edir. Rusiya tarixinin mürəkkəb İvan Qroznının və Birinci Pyotrun hökmranlıq illəri bu əsərlərin əsas mövzusu olmuşdur “Birinci Pyotr” tarixi romanı üzərində 1925-ci ildən ömrünün sonunacan işləmişdir. İkinci tarixi

---

Historical Novel // Estudos & Práticas (UERN), – Turismo: Mossoró/RN, Caderno Suplementar 04, – 2020 http://natal.uern.br/periodicos/index.php/RTEP/index; XIX əsr Rus Tarixi Roman ənənəsində Qəhraman problemi // Asiya xalqları ədəbiyyatı: “ənənələr və müasir tendensiyalar” Beynəlxalq elmi konfransın materialları, – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, – 16 dekabr, – 2024, – s.127-133.

əsəri isə "İvan Qroznı" (1942-1943) dramatik povestdir. Sonuncu əsər iki pyesdən ibarətdir; "Qartal və arvadı" və "Çətin illər". İkinci Dünya müharibəsinin başlanması zamanı yazılmağa başlamış əsərdə tarixə müraciət, özü də İvan Qroznı şəxsiyyətinə müraciət təsadüfi deyildi. Əsərdə İvan Qroznının daxildə boyarlar, xaricdə isə Livoniya ilə mübarizəsi təsvir obyekti olmuşdur. Yazıçı İvan Qroznının həyatını, parlaq sərkərdə obrazını reallıqla təsvir etmiş və ona qədər onu zalım və müstəbid kimi verməyə çalışan köhnə tarixşünaslığa qarşı çıxmışdır.

Tolstoyun bu dövrün tarixi roman janrının ən yaxşı nümunəsi hesab olunan "Birinci Pyotr" əsəri həyata, keçmişə obyektiv və realistcəsinə baxış bucağından ən yaxşı əsərlərdən biri idi. Bu əsər üzərində müəllif iyirmi ildən çox işləmişdir. Roman üç hissədən ibarətdir; birinci və ikinci hissəsi tamamlanmış, üçüncü hissəsi isə yarımçıq qalmışdır. I Pyotr haqqında əsərlər A.Tolstoya qədər çox yazılsa da, bu böyük dövlət adamı haqqında ən yaxşı məhz bu əsər hesab olunur. Yazıçı bu dövlət adamının dövrünü, mühitini, həyatını, son dərəcə obyektiv, rəngarəng və parlaq boyalarla təsvir etmişdir. Bununla yanaşı, həmin dövrdə əldə edilən bütün nailiyyətləri yalnız onun adı ilə bağlamağa çalışmamış, bu işin böyük bir ağırlığının xalqın çiyinlərinə düşdüyünü göstərmək istəmişdir. Romanın sonuncu hissəsində Birinci Pyotrun Narvanın alınması hadisəsindən tutmuş Poltava döyüşünə qədər baş vermiş tarixi hadisələri realistcəsinə təsvir etmişdir. Beləliklə, A.Tolstoy rus xalqının düşüncəsində müxtəlif şəkildə təzahür edən I Pyotrun mükəmməl obrazını yaradır və dövrün tarixi gerçəklərinin bədii səlnaməsini yaradır. Romanın üçüncü hissəsi çap olunduqdan sonra N.Tixonov yazırdı: *"Aleksey Tolstoy böyük istedad sahibidir, insanlığa bütün inamı qaytarmışdır. O, insanı keçmişin ən çətin günlərindən keçirərək başını daha yüksəkdə tutmasını göstərmiş, son dərəcə amansız Pyotr epoxasını bütün təfərrüatı ilə təsvir etməyə nail olmuşdur"* [16].

Süjet xəttinin məğzini Pyotrun həyatı və fəaliyyəti təşkil etməsinə baxmayaraq, A.N.Tolstoyun romanı tarixi-bioqrafik roman

[16] Тихонов, Н.С. Талантливейший человек / К 100-летию со дня рождения / Н.С. Тихонов // Литературная газета. – 1973, 23 мая. – с. 5.

təsiri bağışlamır. Obrazın bədii qabarıqlığına, əyaniliyinə onunla nail olunur ki, Tolstoy öz personajlarını sadəcə təsvir etməyə deyil, onları daim hərəkətdə, əməldə, öz aralarında münasibətdə, bir sözlə, dram əsərində olduğu kimi göstərməyə üstünlük verir. Belə ki, gəmiqayıran sərt Sklyayevin və rəhmli, yumşaq ürəkli dəmirçi Cemovun xarakterləri onların çara münasibətdə cəsarətli əməllərində daha qabarıq təzahür edir. Kiçik Brovkinin, Artamonovun sevimli və mehriban siması çar tərəfindən imtahan edilmələri səhnəsində; Qavrila surəti – gəncin şahzadə qız Nataliyaya olan ehtiraslı hisslərində ehtiva edir. Dünənki Xolop İvaşkanın oğlu özündə şahzadə qıza vurulmaq cəsarəti tapır. Burada Tolstoy Pyotr dövrünün real şəraitini, rus nağıllarının müvafiq obrazlarını və motivlərini öz romanına keçirir.

Bu dövrdə yazılan tarixi əsərlərdən biri də A.P.Çapıginin "Stepan Razin" romanı idi. Əgər A.Tolstoyun qəhrəmanı bir dövlət adamı idisə, A.Çapıginin qəhrəmanı üsyan rəhbəri idi. Lakin onun üsyan rəhbəri olması heç də roman qəhrəmanı olmasına mane olmurdu. Əksinə, onun həyatı və mübarizə üsulları bolşeviklərin mübarizə üsuluna daha çox uyğun gəlirdi. Ona görə də, Stepan Razin, Puqaçov kimi üsyan qəhrəmanlarının həyatının bədii əsərin konfliktinə gətirilməsi o qədər də çətin olmurdu. Lakin bu cür personajların bədii əsərin obrazlarına çevrilməsinin də öz çətinlikləri vardı. A.P.Çapıginin "Stepan Razin" üç cildlik tarixi romanı məzmununa, tarixi hadisələrə yanaşma tendensiyasının özünəməxsusluğuna və həcminə görə bu illərdə tarixi roman janrında yazılmış ən əhəmiyyətli əsərlərdən biri hesab olunurdu.

Tarixi romanda qəhrəman problemi baxımından O.Forşun və Tınyanovun yaradıcılığı da diqqəti cəlb edir. O.Forşun "Radişev" trilogiyası, "Dəlixana gəmi" ("Sumasşedşiy korabl"), "Qarğa" ("Voron") əsərlərinin yazıldığı dövr ilə əlaqənin kəsilməsinin təzahürü olduğu kimi, birinci hissəsi 1936-cı ildə işıq üzü görən, hələ tam başa çatdırılmamış "Puşkin" romanı elə Tınyanov üçün artıq tamam fərqli bir yaradıcılıq dövrünün başlandığını ifadə edirdi. Forşun və Tınyanovun yaradıcılığına nəzər saldıqda, onların yaradıcılığının inkişaf mərhələlərinin son dərəcə oxşarlığının şahidi oluruq. Hər iki yazıçının ilk əsərləri, eyni zamanda, onların ən yaxşı

əsərləri idi. Sonra qazanılanların tədricən itirilməsi baş verir; özünün ən uğursuz, hətta ideya və bədii keyfiyyət baxımından ən ədəbsiz, eybli əsərindən iki-üç il sonra yazıçı bədii xüsusiyyətlərinə görə ən yaxşı və ideyası ilə daha yetkin olan romanını yaradır.

Dissertasiyanın II fəslin ikinci paraqrafı ***"Rus tarixi romanlarında ədəbi şəxsiyyətlərin bədii obrazı"*** adlı paraqrafda ədəbi obrazlara münasibət bildirilir. Məlumdur ki, tarixi əsərlərdə xalqın keçdiyi inkişaf yolu, mərhələləri, düşüncəsi, adət-ənənələri və s. daim bədii təsvir obyekt olmuşdur. Bu əsərlərdə xalqın məişəti, mənəvi-əxlaqi inkişaf yolu işıqlandırıldığı kimi, onun tarixi və ədəbi şəxsiyyətlərinin də obrazına rast gəlmək olur. Əslində tarixi romanların başqa janrlardan bir fərqi də ondadır ki, yazıçı burada millətin keçmişinə müraciət etməklə müasir oxucuların yaddaşında xalqın tarixini bərpa etməyə səy göstərir. Ədəbi şəxsiyyətlərin həyatının təsviri təkcə onun həyat və yaradıcılığını təsvir etmək baxımından deyil, ümumiyyətlə, dövrün ruhunu, psixologiyasını göstərmək baxımından da əhəmiyyətli yer tutur. Bu mənada S.Borodinin "Səmərqəndin ulduzları" romanını xüsusi qeyd etmək olar. Bu əsəri ona görə vurğulayırıq ki, burada bir neçə ziyalı, şair, mütəfəkkir obrazı yaradılmış və bununla da xalqın bədii düşüncəsinin müəyyən tarixçəsini, ədəbi şəxsiyyətinin obrazını yaratmışdır. Bu həm də ona görə əhəmiyyətlidir ki, əsərdə Azərbaycan fikir adamının Fəzlullah Nəimi və İmadəddin Nəsiminin obrazları ilə qarşılaşırıq.

S.Borodin Nəimi və Nəsimi obrazlarına trilogiyanın ikinci kitabı "Tonqal yürüşləri"ndə altıncı və doqquzuncu fəsillərdə müraciət edir. Hər iki fəsil "Şirvan" adlanır. Bu isə o deməkdir ki, yazıçı bu fəsillərdə Teymurlənglə hürufizmi mütləq şəkildə üz-üzə gətirməlidir. Yazıçı Nəimi və Nəsimini yalnız bir şair kimi yox, həm də şeirlərini çalıb oxuyan bir dərviş kimi təsvir edir. Burada da bir reallıq vardır. Belə ki, onlar öz fikirlərini və ideyalarını məhz bu yolla yaymağa çalışırdılar. Maraqlıdır ki, yazıçı İsa Hüseynov da "Məhşər" romanında onları bu şəkildə təqdim edir: *"Gövhərşah ətrafına göz gəzdirib dar bir dalanda burulanda, müridlərdən əsnaf libasında bir adam ayrılıb onun ardınca yeridi. Bu, gizlin görüş mənzilinin daimi sakinlərindən, keşikçi müridlərdəndi... Ensiz daş*

pillələrlə quyutək dərin, dar həyətə düşdükdə istər-istəməz yavaşıdılar. Mənzilin qaranlığında kim isə çalıb oxuyurdu:

Sən sənə gər yar isən, gəl, ey könül, yar istəmə,
Yara-dilbər ol mənə, sən Yari-dildar istəmə.
Gövharşah heyrətlə ayaq saxladı:
– Oxuyan Nəsimidir?! Bəs "Yar istəmə" nədir?"[17]

Nəimi və Nəsimi haqqında S.Borodinin "Tonqal yürüşləri" romanının "Ordugah" fəslində də bəhs edilir. Burada göstərilir ki, Xəlil Sultan artıq geriyə qayıtmışdır. Yazıçının burada Şamaxını şairlər yurdu, Nəsimini isə Şamaxılı hesab etməsi, şeirlərinin küfr olması barədə dedikləri faktoloji baxımdan da maraqlıdır: *"Şirvanda? Ora şairlər yurdudur. Mən bizim qoçaqların birinin əlinə keçmiş şamaxılı şair əl Hürufinin şeirlərinin surətini görmüşdüm. Sonra bu surəti itirdim, orda sənətkarlıqla yazılmış şeirlər var idi. Ancaq o şeirlərdəki fikirlər küfrdür"*[18].

Burada diqqət çəkən əsas məqam Fəzlullahın, Nəsiminin şeirlərindən təsirlənən Xəlil Sultana şair bu şeirlərin sənətkarlıqla yazıldığını bildirsə də, onu ideoloji cəhətdən zərərli hesab etməsidir. Xəlil əbəs yerə alaçıqdan çölə çıxmır, yazıçı bununla onun şairlə razılaşmadığını göstərmək istəyir. O, alaçıqdan çıxdıqdan sonra bayaqdan bəri onu dinləyən ikinci şair Bisati Fəzlullahı tanıması, hiyləgər qoca olması, ona Təbrizdə rast gəlməsi və sonra Təbrizdən Şirvana qaçması ilə bağlı məlumat verir. Bisatinin sözləri ilə yazıçı hürufizm və onun görkəmli nümayəndələrinin yaradıcılığına münasibətini ifadə edir. Onun bu qiymətləndirməsindən aydın olur ki, Nəimi qatı hürufidir, şagirdləri də hürifilərdir, şeirin hər şeyə açıq gözlə baxmasını, həqiqəti yazmasını istəyir. Özlərini mövhumatçı hesab etsələr də, Allahın adından hökmdarları ifşa edirlər, lakin bir şeyi yaddan çıxarırlar ki, layiqli adamlara hakimiyyəti verən kimdir? Şair Büsatinin Fəzlullah Nəimi və hürufizm haqqında dedikləri hürufuzmi olduğu kimi anladır. Fəzlullahın hərfləri müqəddəs hesab etməsi, onu Quranın kiçik hissələri bilməsinə də toxunur. Büsati hürifizmin mərkəzində dayanan insan konsepsiyasına da

[17] Borodin, S. Səmərqəndin ulduzları. Yürüş tonqalları (ikinci kitab) / – Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyatı, – 1962. – s.123.
[18] Yenə orada. – s. 219.

münasibətini bildirir: *"İnsanın kainatın əsasını təşkil etdiyini təsdiq edən, hər bir insanın Allah olduğunu deyən bu küfr şeirlər də, başa düşün, müqəddəsdir, çünki onlar da Quran kimi eyni hərflərlə yazılıb! Ey qadir Allah, tək sən özün onların nə qədər səhv etdiyini, dolaşdığını görürsən"*[19].

S.Borodin hürufi və Nəsimi məsələsinə romanın "Marağa" fəslində də toxunur. Göstərir ki, Teymurləng Marağaya özü ilə bərabər Uluqbəyi də gətirib. Nəsimi şeirlərini heç zaman yaddan çıxarmayan Uluqbəy Marağanın qədim abidələrinə heyran qalır. Burada diqqəti bir məsələyə yönəltmək lazım gəlir, o da yazıçının Nəsimini "Şirvanlı şair" kimi qələmə verməsidir. S.Borodin Nəimi və Nəsimini Şirvanda görüşdürür və Nəsimini Şirvanlı, yerli şair hesab edir ki, bu da tarixi gerçəkliyə tamamilə uyğundur. Əsər yazılarkən yalnız bəzi Azərbaycan mənbələrində Nəsiminin Şamaxılı olması haqqında araşdırmalar aparılmışdı. Deməli ki, ya yazıçı bu mənbələrlə tanış idi, ya da digər mənbələrdə də Nəsiminin Şirvanlı olması haqda məlumatlara malik imiş.

Olqa Forş "Müasirlər" romanında XIX əsrin tanınmış yaradıcı adamları N.V.Qoqol və A.A.İvanovun son dövr həyatını və ruh dünyasını qələmə almağa çalışmışdır. Əlbəttə, əsas qəhrəmanların ətrafında olan rus sənətkarları A.Gertsen, Z.Volkonskaya, eləcə də, bədii təxəyyülün məhsulu olan Baqretsov, Paşka, kimyaçı, İtaliya azadlığı üçün gənc döyüşçülər kimi obrazlar də əsas yer tuturdu. Romanın əsasında Qoqolun yazışmaları, A.İvanovdan gələn məktublar, dostlarla yazışmalardan seçilmiş alıntılar, rus və italiyan həyatından alınmış materiallar təşkil edirdi. Tarixi roman üçün belə bir süjet xəttinin götürülməsi janrda müəyyən yenilik demək idi. Yazıçı burada Qoqol və İvanovu öz dili ilə danışdırır, onların məktublarından sitatlar verməklə dialoqlarını qurur və beləliklə, dövrün real mənzərəsini yaratmağa nail olur. Təsadüfi deyil ki, B.Eyxenbaum romanı *"epoxanın dekorasiyası"* adlandırmışdır[20].

[19] Borodin, S. Səmərqəndin ulduzları. Yürüş tonqalları (ikinci kitab) / – Bakı: Azərbaycan Uşaq və Gənclər Ədəbiyatı, – 1962. – s. 220.

[20] Эйхенбаум, Б. Декорация эпохи / Б.Эйхенбаум // Эйхенбаум, Б. Мой временник. – Санкт-Петербург: Инапресс, – 2001. – с. 131.

"Müasirlər" romanında Qoqol və İvanov obrazları mərkəzi yer tutur. Yazıçı Qoqolun daxili dünyasını bütün dolğunluğu ilə ifadə etmək üçün onun yazışmalarından toplanmış orijinal diloaqlardan istifadə etmişdir. Romanda bu iki şəxsiyyətin ilk növbədə yaxın dost, ruhən bir-birinə bağlı olduqları göstərilir. Hiyləgər şəxslər isə hər vasitə ilə bu dostluğa mane olmağa çalışırdılar. Yazıçının diqqəti bu iki obrazı yaratmağa yönəldiyi anda ən əhəmiyyətli detallardan biri Kalikstin gəzintisi zamanı baş verir. Onun təsviri ilə yazıçı Qoqol və İvanov arasında baş verən münaqişənin estetik yönünü təyin edir, sənət və din üstünlüyü haqqında əbədi müzakirəni davam etdirməyə çalışır. Onların hər ikisi həyat və din haqqında fikirlərini ortaya qoyular.

İkinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.[21]

Dissertasiyanın **"Rus romanlarında tarixi hadisə və şəxsiyyətlərin təsviri"** adlı III fəsil iki paraqrafdan ibarətdir. ***"Teymurləng şəxsiyyəti və fatehliyi qəhrəman kontekstində"*** adlı birinci paraqrafda 40-50-ci illər tarixi romanları qəhrəman kontektində araşdırılır. XX əsrin 40-cı illərindən başlayaraq rus ədəbiyyatında tarixi roman janrının yeni nümunələri yaranmağa başlayır. Bu, hər şeydən əvvəl, bədii nəsrə yeni qüvvələrin gəlməsi və indiyədək bədii nəsrdə tarixi mövzuların az işlənilməsindən irəli gəlirdi. S.Borodinin "Səmərqəndin ulduzları" trilogiyasına baş qəhrəman Teymurləngin həyatı və şəxsiyyətini qoyması özü maraqlıdır. S.Borodinin "Səmərqəndin ulduzları" romanı da məhz bu kontekstdə yaranmış, XIV əsrdə Teymurləng və onun dövründəki tarixi, siyasi hadisələrin təsviri əsas mövzu kimi götürülmüşdür. Romanda, demək olar ki, Teymurləngin münasibətdə olduğu bütün tarixi şəxsiyyətlər, apardığı yürüşlər, müharibələr təsvir edilmişdir. Romanda baş verən hadisələrin və tarixi şəxsiyyətlərin çoxluğu,

[21] Mustafayeva, P.Ə. A.Çapıginin "Stepan Razin" romanında tarixi gerçəkliyin təsviri // – Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər, – 2021. Cild 12, №4, – s. 34-40.; Aleksey Tolstoyun "I Pyotr" tarixi romanında həyat həqiqətinin bədii inikası // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər. Dil və ədəbiyyat seriyası, – 2021. №2, – s.115-123.; XIX əsrin ikinci yarısında rus tarixi romanının inkişaf yolu və meyilləri // – Bakı: AMEA M.Füzuli adına əlyazmalar İnstitutu. Filologiya məsələləri, – 2023. №4, – s.404-413.

dövrün genişliyi əsəri roman-epopeya adlandırmağa da tamamilə imkan verir. Trilogiyanın ilk romanı "Topal Teymur" romanı ilk dəfə olaraq rus ədəbiyyatında Asiyadan olan bir fatehin həyatına, döyüşlərinə, dövr və mühitinə həsr olunmuş əsər olur.

"Topal Teymur" romanında yazıçı səhifədən-səhifəyə Teymurun obrazını detallaşdırır, onu müxtəlif situasiyalarda təsvir etməklə xarakterinin açılmasına nail olmağa çalışır. Bu detallar heç də həmişə Teymurun öz hərəkətlərində və xarakterində göstərilmir, həm də əsgərlərin, xalqın ayrı-ayrı təbəqələrinin onun iştirakı olmadan danışıqlarında ifadə olunurdu. Tarixi mənbələrin Teymurun Hindistan üzrəinə yürüşü haqqında məlumatları ilə yazıçının təsvirləri bir-biri ilə yaxınlıq təşkil edir. Məşhur şərqşünas German Vamberi "Əmir Teymur" kitabında göstərirdi ki, Teymur Dehli "bütün xəzinə və sərvəti, hünərmənd əhalisi ilə *"tatar cahangiri Əmir Teymurun əlində qənimət oldu, onların müqəddəs məbədləri darmadağın edildi, bütləri dışarı çıxarılıb atıldı. Teymur buradan keçib hər yerdə ölüm və fəlakət saçaraq müqəddəs Knık nəhrinin mənbəyinə qədər irəliləd"i*[22].

S.Borodin romanda Teymur sarayını, ayrı-ayrı əyanları, məşhur günbəz tikintisini, həmin illərdə baş verən ictimai-siyasi, dini prosesləri də tarixi reallığa uyğun olaraq təsvir edir. Romanda bazar, aşxana piştaxtaları və s. son dərəcə bədii şəkildə göstərilir. Yazıçı Teymuru yalnız həmişə döyüşən birisi kimi göstərmir, həm də onun xarakterini bir insan kimi açmaq üçün ailədə, hətta bazarda belə təsvir edir. Əsərdə Teymurun Azərbaycana gəlişi və Miranşahı cəzalandırması da tarixi reallığa uyğun olaraq göstərilir.

S.Borodinin "Səmərqəndin ulduzları" roman-epopeyasında tarixi hadisələrlə bədii təxəyyülün paralel inkişaf etdiyini söyləmək olar. Bu da tamamilə qəbuledilən dir, çünki tarix yazıçı üçün yalnız bir vasitədir və o, istədiyi kimi tarixi hadisələrdən bu və ya digər şəkildə istifadə edə bilər. Buna baxmayaraq, romanda yazıçının Teymura münasibətində müəyyən yanlışlıqlar, tarixi təhriflərin də olduğunu görmək olar. Bu da ondan irəli gəlirdi ki, sovet cəmiyyətinin 30-50-ci illərində hər hansı bir tarixi şəxsiyyətin

[22] Vamberi, G. Əmir Teymur / G.Vamberi. – Bakı: Azərbaycan Dövlət kitab palatası, – 1991. – s.27.

qabardılması və müsbət planda verilməsi onun idealizə edilməsi kimi başa düşülürdü. Bu cür əsərlərə qarşı müəyyən tədbirlər də görülürdü. Ona görə də roman boyu Teymurləngin həyatı və şəxsiyyəti ilə uyğun gəlməyən müəyyən tarixi təhriflərə də yol verildiyini də görmək mümkündür. Romanda bəzi hadisələrin uzun-uzadı təsviri, əsərin əsas süjet xəttini zənginləşdirməyən hadisə və əhvalatların təsvirinə də rast gəlmək olur. Məsələn, romanda Səmərqənddə yaşayan erməni sövdəgər Qıllı Gevorqun başına gələn hadisələr əsərin süjet xəttinə heç nə əlavə etmir. Hətta Qıllı Gevorqa verilən yer bəzi hallarda Teymurləngi üstələyir. Bu kimi məsələlər romanın bədii dəyərini bir qədər azaltmış olur. Elə Teymurləngin obrazının yaradılmasında da müəyyən təhriflərin olduğunu görürük. Belə ki, yazıçı Temurləngi ermənilərin düşməni kimi qələmə verir, guya onlara qarşı Teymurləng qərəzli mövqe tutmuşdur. Bu ondan irəli gəlir ki, yazıçıya verilən mənbələrdə bu cür yanlış qənaətlər mövcud olmuşdur. Belə mənbələrdən biri F.Metsopskinin "Teymurləngin tarixi" əsəridir. Müəllif burada Teymurləngin şəxsiyyəti ilə bağlı rəvayətlərdən çıxış edir və xüsusilə ermənilərə qarşı qərəzli mövqe tutduğunu deyir və bu barədə heç bir mənbəyə əsaslanmırdı[23].

III fəslin ikinci paraqrafı ***"Tarixi romanlarda fateh-şəxsiyyətlərin bədii obrazı"*** adlanır. Vasili Yanı bir yazıçı kimi tarixi romanda qəhrəman problemi düşündürürdü. Onun tarixi roman qəhrəmanları rus həyatından daha çox dünya fatehləri, yaxud Orta Asiya xalqlarının həyatından götürülürdü. Onun bir-birinin ardınca "Kurqanlardan gələn işıq" (Makedoniyalı İskəndərin Şərqə yürüşü), "Batı", "Çingiz xan" və s. tarixi romanları dərc edilmişdir. Bu əsərlərin əsas mövzusu Şərqdə baş verən hadisələrin təsviri olduğundan onu bədii nəsrinш şərqşünas тэыкш də adlandırmaq olar.

V.Yanın sovet tarixi roman normasından kənara çıxan əsərlərdən biri "Çingiz xan" romanıdır. Yazıçı bu əsərlə özünə yeni qəhrəman tipi seçmişdir. Baxmayaraq ki, mövcud ideologiya Çingiz xan kimi fatehləri qəbul etmir və yaxud da ayrı-ayrı xalqların bu cür fatehlər yetişdirməsinə qısqanclıqla baxırdı. Cingiz xan (1162-1227)

[23] Metsopski, F. Teymurləngin tarixi / F.Metsopski. – Bakı: Elmlər Akademiyası, – 1957. – s. 64.

görkəmli monqol sərkərdəsi və hökmdarı olmaqla bütün monqol qəbilələrini bir bayraq altında birləşdirmiş və bəşəriyyət tarixində ən böyük Moğol imperiyasını (1202-1368) qurmağa nail olmuşdur. Qeyd etmək lazımdır ki, yazıçı bu əsərlə ilk dəfə olaraq həm bu mövzuya müraciət etmiş, həm də Çingiz xanın bədii obrazını yaratmışdır. Bu isə sovet tarixi romanında bir yenilik demək idi. Rus ədəbi mühitində rus olmayan bir fatehin bədii obrazını yaratmaq dövrü üçün çox böyük bir yenilik olmaqla yanaşı, həm də cəsarət idi.

Yazıçı "Çingiz xan" romanında baş qəhrəmanının həyat yolunu bütünlüklə izləyir. Uşaqlığından tutmuş gəncliyi, kasıblığı, hakimiyyətə gəldiyi yollar, apardığı döyüşlər və qocalığına qədər böyük həyat və döyüş yolunu təsvir edir. Uşaqlığı və gəncliyində Timuçin adı ilə igidliyi və Çingiz xan şöhrətinə çıxması bütün detalları ilə göstərilir. Ordu quruculuğunda etdiyi yeniliklər, eləcə də yalnız monqol xanlarını deyil, çobanından tutmuş bütün təbəqələrinə qədər xalqı öz tərəfinə çəkməsi onun xarakterinin açılmasında mühüm rol oynayır. Romanda monqolların böyük xaqanının həyatının son illəri də göstərilir. Biz Çingiz xanı yalnız bir döyüşçü kimi yox, həm də bir hakimiyyəti idarə edə bilən, yaxud iqtisadi məsələləri təhlil edə bilən hərtərəfli bir insan kimi görürük. Yazıçı roman qəhrəmanının xarakterini yalnız onun həyatının təsvirində deyil, həm də digər obrazların ona münasibətində, baxış bucağında açmağa nail olur.

"Kurqanlardan gələn işıq" romanında dünyanın böyük hökmdarlarından, görkəmli, fatehlərindən, sərkərdələrindən biri olan Makedoniyalı İsgəndərin Orta Asiyaya hərbi yürüşlərindən bəhs olunur. Lakin yazıçı uzun-uzadı bu yürüşləri təsvir etmir, əksinə bu yürüşlər haqqında müasirlərin fikirlərinə geniş yer verir. Romanda skiflər həm də döyüşkən, mübariz bir xalq kimi təsvir edilir. Onlar makedoniyalılara qarşı yeni döyüş taktikası seçməklə onları təəccübləndirmişlər. Skiflər döyüş səhnələrində toplu şəkildə hərəkət etmir, ətrafa səpələnir, sürətlə təpələrin yamaclarına qalxır, tez də geri dönürdülər. V.Yan bu romanında həyati müşahidələrini elmi araşdırmaları ilə uyğunlaşdıra bilir, adət-ənənələrin etnik xüsusiyyətlərini, özünəməxsusluğunu və ardıcıllığını dərk edir və ona görə də öz bədii ümumiləşdirilmələri ilə inandırıcılığa və təsvir

doğruluğuna, dolğunluğuna nail olur. Bu, həm də onun tarixi romançı kimi ustalığı, tarixi hadisələrə xüsusi önəm verməsi ilə bağlı idi. Hətta bəzi yerlərdə yazıçı bir tarixçi olaraq çıxış edir ki, bu da onun tədqiqatçılıq qətiyyəti ilə bağlıdır.

Vasili Yanın tarixi romanlarının rus tarixi romanlarının təşəkkülü baxımından önəmli bir yer tutduğunu görürük. Sosialist realizminin ilkin mərhələsində tarixi romanların yazılmasında bir çox problemlərin olmasına baxmayaraq, tarixi mövzuda yazılan əsərlərdə yeni baxış bucağı və müasirlik konteksti gətirdi. "Çingiz xan", "Batı", "Sonuncu dənizə doğru", "Finikiya gəmisi", "Kurqanlardan gələn işıq" və s. tarixi romanları ilə janra yeni mövzu və problematika gətirdi. Rus tarixi romanında asiyalı fatehləri, hökmdar və sərkərdələri baş qəhrəman etdi və onları obyektivlik, tarixi gerçəkliklə təqdim etdi. Hələ sovet tarixşünaslığının birmənalı qiymət verə bilmədiyi Çingiz xan, Makedoniyalı İskəndər kimi fatehlərin bədii obrazları yaradıldı, apardıqları müharibə və mübarizənin mahiyyətinə varıldı. "Kurqanlardan gələn işıq" tarixi romanında xarakterlərin dolğun bədii təsvirinə, qədim dövrü əhatəli və inandırıcı şəkildə canlandırdığına görə janrın yeni inkişaf mərhələsində xüsusi yer tutur.

Üçüncü fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.[24]

Dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə edilən qənaətlər ümumiləşdirilir və bu dövrdə yaranan tarixi roman janrının inkişaf xüsusiyyətləri və qəhrəman problemi ilə bağlı aşağıdakı qənaətlərə gəlinir:

- Bu tarixi roman janrına və qəhrəman məsələsinə münasibət birmənalı olmamışdır; yəni 20-ci illərdə tarixi roman və qəhrəman probleminə münasibət sonrakı illərdə dəyişmiş və yenilənmişdir.

- Rusiyada baş verən ictimai-siyasi proseslər ədəbiyyatın da inkişafına öz təsirini göstərmişdir. Bu dövrdə yaranan tarixi

[24] Mustafayeva, P.Ə. Vasili Yanın "Kurqanlardan gələn işıq" tarixi romanında qəhrəman problemi // – Bakı: Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2017. №3, – s.224-227.; Sergey Brodin bədii nəsrində tarixi gerçəkliyin təsviri problemləri // – Bakı: Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Müqayisəli ədəbiyyatşünaslıq. Beynəlxalq elmi jurnal, – 2019. №1, – s.187-192.

romanlarda ideologiya özünü daha çox göstərmiş, tarixi hadisələrə, şəxsiyyətlərə münasibətdə bolşevik təbliğatı əsas rol oynamışdır.

- Zaman keçdikcə tarixə, keçmişə münasibətdə dəyişmə baş verir, daha əvvəlki kimi tarixi hadisə və şəxsiyyətlərə sinfi nöqteyi-nəzərdən yanaşılmır, qeyri-rəsmi qadağalar qoyulmurdu. Bu proses 60-cı illər ədəbiyyatında açıq şəkildə biruzə verməyə başladı.

- Dövrün tarixi romanları içərisində A.Tolstoyun "I Pyotr" tarixi romanı başlıca yerlərdən birini tutur. Yazıçı burada dövlət adamı I Pyotrun parlaq obrazını yaradır. Dövrün və şəxsiyyətin təsvirində gerçəkliyə əsaslanan yazıçı sosialist realizmi zamanında ən yaxşı tarixi romanını yazır.

- S.Borodinin yaradıcılığında ayrı-ayrı xalqların keçmişini, tarixi qəhrəmanlarını əsərin baş qəhrəmanı etmək xeyli çətin olsa da, S.Borodin Teymur obrazını roman-epopeyasının baş qəhrəmanı edə bilmişdir.

- Rus tarixi romanında Azərbaycanla bağlı təsvirlərə də yer verilmişdir. S.Borodinin "Səmərqəndin ulduzları" romanında yazıçının Nəimi və Nəsimi obrazları da yaradılmışdır.

Dissertasiyanın əsas məzmunu müəllifin aşağıda qeyd olunan elmi işlərində öz əksini tapmışdır:

1. XX əsrin I yarısında rus nəsrində tarixi roman və onun inkişaf yolları // – Bakı: M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2017. №8, – s.345-352.
2. Vasili Yanın "Kurqanlardan gələn işıq" tarixi romanında qəhrəman problemi // – Bakı: Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, – 2017. №3, – s.224-227.
3. Sosrealizmin ilkin mərhələsində rus tarixi romanının inkişaf meyilləri // – Bakı: ADPU-nun Xəbərləri, Humanitar, ictimai və pedaqoji elmlər seriyası, – 2018. №3(66), – s.73-82.
4. Вопросы искажения фактов в описании реальности в историческом романе // – Киев: Мова и культура. Язык и культура, – 2019. Вип. 22, том II (197), – с.416-422.
5. Питания спотворення фактів у описі реальності в історичному романі // – Дрогобич: Проблеми Гуманітарних

Наук. Серия филология. Збирник Науковых праць, – 2019. Вип. 44, – с.60-68.
6. Sergey Brodin bədii nəsrində tarixi gerçəkliyin təsviri problemləri // – Bakı: Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Müqayisəli ədəbiyyatşünaslıq. Beynəlxalq elmi jurnal, – 2019. №1, – s.187-192.
7. Tarixi romanının yaranması və formalaşması problemləri // "Filoloji elmlər innovativ tədqiqatlar kontekstində". Beynəlxalq elmi-praktik onlayn konfransın materialları, – Bakı: Bakı Slavyan Universiteti, – 24 dekabr, – 2020, – s. 383-387.
8. Пути развития русского исторического романа во второй половине XIX века // "Инновационные подходы к внедрению передового опыта и его практическому применению" Международная научно-практичесая конференция, Стерлитамак: ФЫШ, Ч.2, – 19 декабря, – 2020, – с.50-54.
9. Problems of the Emergence and Formation of the Russian Historical Novel // Estudos & Práticas (UERN), – Turismo: Mossoró/RN, Caderno Suplementar 04, – 2020 http://natal.uern.br/periodicos/index.php/RTEP/index
10. A.Çapıginin "Stepan Razin" romanında tarixi gerçəkliyin təsviri // – Bakı: Bakı Qızlar Universiteti, Elmi əsərlər, – 2021. Cild 12, №4, – s. 34-40.
11. Aleksey Tolstoyun "I Pyotr" tarixi romanında həyat həqiqətinin bədii inikası // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər. Dil və ədəbiyyat seriyası, – 2021. №2, – s.115-123.
12. XIX əsrin ikinci yarısında rus tarixi romanının inkişaf yolu və meyilləri // – Bakı: AMEA M.Füzuli adına əlyazmalar İnstitutu. Filologiya məsələləri, – 2023. №4, – s.404-413.
13. XIX əsr Rus Tarixi Roman ənənəsində Qəhraman problemi // Asiya xalqları ədəbiyyatı: "ənənələr və müasir tendensiyalar" Beynəlxalq elmi konfransın materialları, – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, – 16 dekabr, – 2024, – s.127-133.

Dissertasiyanın müdafiəsi 30 aloyabz 2026-cı il tarixində saat 16.00 Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1014, S.Rüstəm 33. Bakı Slavyan Universiteti.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30 Oktyabz 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 09.10.2026

Kağızın formatı: A5

Həcm: 40936 işarə

Tiraj: 100 nüsxə